**Kazus**

*Faktlar* – Bu işdə araşdırılan dövrdə A dövlətinin qanunvericiliyi cinayət törətməkdə şübhəli bilinən şəxslərə həbsə alındıqları andan vəkilin yardımından istifadə etmək hüququ verirdi, yalnız dövlət təhlükəsizliyi məhkəmələrinin yurisdiksiyasına aid olan cinayətlər istisna təşkil edirdi. Yetkinlik yaşına çatmayan ərizəçi qanunsuz təşkilata kömək etməkdə və cinayətlərin törədilməsinə təhrikçilikdə şübhəli bilindiyinə görə həbsə alınmışdı, bu cür işlərə baxılması isə dövlət təhlükəsizliyi məhkəmələrinin səlahiyyətinə aid idi. O, vəkilin iştirakı olmadan polisə ifadə verərək qanunsuz nümayişdə iştirak etdiyini və plakatdakı şüarı yazdığını etiraf etmişdi. Sonradan prokurorun və işi araşdıran hakimin qarşısında ərizəçi etirafından imtina edərək bildirdi ki, bu etiraf ondan təzyiq altında alınıb. İşi araşdıran hakim onun məhkəməyəqədər həbsdə saxlanılması barədə qərar qəbul etdi və bundan sonra vəkil onun yanına buraxıldı. O, məhkəmədə ifadəsindən imtina etdi, amma dövlət təhlükəsizliyi məhkəməsi onun polisə etirafını etibarlı sübut kimi qəbul etdi və onu təqsirkar hesab etdi. Ərizəçi 30 ay müddətinə azadlıqdan məhrum edildi.

Ərizəçi Avropa Məhkəməsinə müraciət etdi.

Onun hansısa hüququ pozulmuşdumu?

*Hazırladı: Sadiq Bağırov*